| **Sıra №-si** | **Təhsil müəssisələrinin adları** | **Ayrılan vəsait** |
|---|---|---|
| 1 | Ağdam şəhər 85 nömrəli 96 şagird yerlik modul tipli köçkün tam orta məktəbin quraşdırılması | 425 000 |
| 2 | Tərtər rayonu Kovdadıq kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 3 | Tərtər rayonu Zolgəran kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Füzuli şəhər 24 nömrəli 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 330 000 |
| 5 | Füzuli şəhər 20 nömrəli 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Laçın rayonu Ağbulaq kənd 56 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 330 000 |
| 7 | Laçın rayonu Sonasar kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 8 | Laçın rayonu Katos kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| | **Cəmi** | **2 590 000** |

## Qobustan rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Qobustan rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 fevral 2018-ci il.

## Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə qeyri-neft sektorunun vacib tərkib hissəsi kimi aqrar sahənin inkişaf etdirilməsi prioritet istiqamətlərdəndir. Belə ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair çoxşaxəli tədbirlər görülür, ərzaq və qida təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sektorun inkişafına yönələn mühüm layihələr həyata keçirilir. Yeni qurulan və müasir avadanlıqla təchiz edilmiş infrastruktur, o cümlədən heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədi ilə yaradılan süni mayalanma mərkəzləri heyvandarlığın inkişafında mühüm rol oynamaqdadır.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanma tədbirlərinin həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Süni Mayalanma Mərkəzinin yaradılması işlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 fevral 2018-ci il.

## Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. 2017-ci ildə quraşdırılmış modul tipli 44 təhsil müəssisəsinin (siyahı əlavə olunur) qazlaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 830 000 (səkkiz yüz otuz min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2018-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 24 fevral tarixli Sərəncamına*
*Əlavə*

**2017-ci ildə quraşdırılmış, qazlaşdırılması nəzərdə tutulan modul tipli 44 təhsil müəssisəsinin siyahısı**

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Ağdaş rayonu Pirəyir kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 800 |
| 2 | Ağdaş rayonu Qumlaq kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi | 14 890 |
| 3 | Ağdaş rayonu Zeynəddin kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 940 |
| 4 | Ağstafa rayonu Kolayır kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi | 14 030 |
| 5 | Ağsu rayonu Göydəlləkli kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 640 |
| 6 | Ağsu rayonu Hacman kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 820 |
| 7 | Balakən rayonu Salban kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi | 18 760 |
| 8 | Balakən rayonu Sarıbulaq kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 18 990 |
| 9 | Bərdə rayonu Qaratəpə kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 520 |
| 10 | Gədəbəy rayonu Köhnəkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 70 200 |
| 11 | Göyçay rayonu Alıkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 880 |
| 12 | Göygöl rayonu Xaşabağ kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 640 |
| 13 | Kürdəmir rayonu Çöl-Ərəb kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 050 |
| 14 | Kürdəmir rayonu Pirəköçə kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 16 700 |
| 15 | Kürdəmir rayonu Yeni Şıxımlı kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 230 |
| 16 | Masallı rayonu Meşəkənar kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 110 |
| 17 | Neftçala rayonu Tatarməhlə kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 700 |
| 18 | Oğuz rayonu Qarabaldır kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 000 |
| 19 | Oğuz rayonu Yemişənli kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 820 |
| 20 | Qax rayonu Əmircan kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 940 |
| 21 | Qazax rayonu Abbasbəyli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 460 |
| 22 | Quba rayonu Cağacıq kənd 56 şagird yerlik modul tipli ibtidai orta məktəbi | 17 410 |

| | | |
|---|---|---|
| 23 | Quba rayonu Kürkün kənd 40 şagird yerlik modul tipli ümumi məktəbi | 17 650 |
| 24 | Qusar rayonu Nəcəfkənd kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 270 |
| 25 | Qusar rayonu Sudur Palasa kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 14 740 |
| 26 | Qusar rayonu Üzdən oba kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 940 |
| 27 | Qusar rayonu Zuxul kənd 40 şagird yerlik modul tipli ümumi məktəbi | 17 820 |
| 28 | Sabirabad rayonu Qəfərli kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 950 |
| 29 | Şabran rayonu Xırdaoymaq kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 20 540 |
| 30 | Şamaxı rayonu Nağaraxana kənd 96 şagird yerlik modul tipli tam orta məktəbi | 17 460 |
| 31 | Şamaxı şəhəri 8 nömrəli 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 350 |
| 32 | Şəki rayonu Fazil kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 790 |
| 33 | Şəmkir rayonu Hacalılar kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 050 |
| 34 | Şəmkir rayonu Qaranüy kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 230 |
| 35 | Tərtər rayonu Bayandur kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 18 840 |
| 36 | Tərtər rayonu Poladlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 940 |
| 37 | Ucar rayonu Bərgüşad kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 710 |
| 38 | Xaçmaz rayonu Çılğır kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 940 |
| 39 | Xaçmaz rayonu Gəncəli kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 820 |
| 40 | Xızı rayonu Baxışlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 750 |
| 41 | Yevlax rayonu Marzıllı kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbi | 17 430 |
| 42 | Zaqatala rayonu Höytala kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 510 |
| 43 | Zərdab rayonu Alıcanlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 17 820 |
| 44 | Zərdab rayonu Burunlu kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbi | 18 920 |
| | **Cəmi** | **830 000** |

## Mingəçevir şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi və təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində Mingəçevirdə bir sıra sosialyönümlü infrastruktur layihələri yerinə yetirilmiş, o cümlədən “ASAN həyat” Kompleksi, Bayraq Muzeyi, Uşaq-Gənclər Şahmat İdman Məktəbi, Gənclər evi, əlil və şəhid ailələri üçün ümumilikdə 140 mənzilli 4 yaşayış binası tikilmiş, “Kür” Olimpiya Tədris İdman Mərkəzinin, Şəhər Mərkəzi Xəstəxanasının, Mingəçevir Dövlət Dram Teatrının, Tarix Muzeyinin binaları yenidən qurulmuş, təhsil ocaqları istifadəyə verilmişdir. Bununla yanaşı, ümumi gücü 424 MVt olan “Mingəçevir” Su Elektrik Stansiyası və şəhərin içməli su təchizatı sistemi yenidən qurulmuş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, Mingəçevir Sənaye Parkında “Mingəçevir Tekstil” MMC-nin iplik istehsalı fabrikləri yaradılmış, ümumilikdə 16 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Mingəçevir şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Mingəçevir şəhərində 60 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi və zəruri təmir işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Mingəçevir Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 fevral 2018-ci il.

## Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 fevral 2018-ci il.

## Naftalan Şəhər Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Naftalan Şəhər Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 6,166 milyon (altı milyon bir yüz altmış altı min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 mart 2018-ci il.

## Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə iqtisadiyyatın mühüm sahələrindən olan qeyri-neft sektorunun inkişafı ilə yanaşı, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilmiş, əkinəyararlı torpaqlardan və mövcud su resurslarından səmərəli istifadə istiqamətində mühüm addımlar atılmış, minlərlə hektar torpaq sahəsi əkin dövriyyəsinə cəlb olunmuş və nəticədə kənd təsərrüfatı məhsullarının istehsalında davamlı artım meyilləri formalaşmışdır.

Respublikada pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalında böyük artıma nail olmaq məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və yeni suvarılacaq torpaqların istifadəyə verilməsi üçün mühüm tədbirlər həyata keçirilmiş, su anbarları, nasos stansiyaları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir. Görülmüş tədbirlərin davamı olaraq, Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayında nasos stansiyasının və "H" kanalının yenidən qurulması nəticəsində 2017-ci ildə 4147 hektar əkin sahəsi suvarma suyu ilə təmin edilmişdir.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əlilənbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması layihəsi çərçivəsində tikinti işlərinin başa çatdırılması və daha 7551 hektar əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.47.13-cü yarımbəndində göstərilmiş məbləğin 22 358 000 (iyirmi iki milyon üç yüz əlli səkkiz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 mart 2018-ci il.

## İmişli "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkədə vətəndaşlara göstərilən dövlət xidmətlərinin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyalar tətbiq edilməklə həyata keçirilməsi məqsədilə bugünədək 12 "ASAN xidmət", 2 "ASAN Kommunal" və 3 "ABAD" mərkəzinin fəaliyyəti təşkil edilmişdir. Vahid standartlar çərçivəsində idarə olunan mərkəzlərin fəaliyyəti ilə əlaqədar 3 minədək vətəndaşın məşğulluğu təmin edilmiş, 13 mindən çox gənc mərkəzlərdə könüllü fəaliyyətinə cəlb edilmişdir.

"ASAN Həyat" kompleksləri tərkibində yeni iş yerləri yaradılmış, "ABAD" mərkəzləri özünüməşğulluq proqramlarının icrasına öz töhfəsini vermişdir. Ümumilikdə, "ASAN" mərkəzləri vasitəsilə 19 milyondan çox vətəndaş müraciəti cavablandırılmış, xidmətlərin göstərilməsində vətəndaş məmnunluğu daima yüksək səviyyədə saxlanılmışdır.

Bu sahədə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İmişli "ASAN Həyat" kompleksinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.2-ci yarımbəndində göstərilmiş məbləğin 19,9 milyon (on doqquz milyon doqquz yüz min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il.

## Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında cəmi 956 şagird yerlik modul tipli 15 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 5 056 000 (beş milyon əlli altı min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 2018-ci il.

***Azərbaycan Respublikası Prezidentinin***
***2018-ci il 9 mart tarixli Sərəncamına***
***Əlavə***

### Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Oğuz rayonu Baş Daşağıl kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 2 | Oğuz rayonu Mollalı kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 3 | Oğuz rayonu Xaçmazqışlaq kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 4 | Şəki rayonu Aşağı Daşağıl kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 5 | Şəki rayonu Daşbulaq kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Şəki rayonu Öyrət kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 7 | Şəki rayonu Yeni Göynük kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 8 | Şəki rayonu Çapağan kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 9 | Qəbələ rayonu Qaradeyn kənd 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 390 000 |

| | | |
|---|---|---|
| 10 | Qəbələ rayonu Şəfli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 11 | Qəbələ rayonu Laza kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 12 | Qəbələ rayonu Zərgərli kənd 56 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 216 000 |
| 13 | Qax rayonu Çinarlı kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 14 | Qax rayonu Fıstıqlı kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 15 | Qax rayonu Aşağı Malax kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| | **Cəmi** | **5 056 000** |

## Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya tələbatının ödənilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə Azərbaycan Respublikasında torpaqlardan istifadənin səmərəliliyinin artırılması və əkinəyararlı torpaqların genişləndirilməsi məqsədi ilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, o cümlədən əhalinin içməli suya tələbatının ödənilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 597 min nəfərə yaxın olan 38 şəhər və rayonun 248 yaşayış məntəqəsində (siyahı əlavə olunur) 8740 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2018-ci ildə 300 ədəd subartezian quyusunun layihələndirilməsini və qazılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.47.13-cü yarımbəndində göstərilmiş məbləğin 21,0 (iyirmi bir) milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 12 mart 2018-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 12 mart tarixli Sərəncamına*
*Əlavə*

**2018-ci ildə qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair**
**S İ Y A H I**

| Sıra №-si | Rayonun, şəhərin adı | Quyu ların sayı | Yaşayış məntəqələrinin adı |
|---|---|---|---|
| 1. | Ağcabədi | 19 | Hindarx (2 ədəd)<br>Poladlı (1 ədəd)<br>Taynaq (1 ədəd)<br>Sarıcalı (1 ədəd)<br>Şərəfxanlı (1 ədəd)<br>Bala Kəhrizli (1 ədəd)<br>Muğanlı (1 ədəd)<br>Hüsülü (2 ədəd)<br>Göyük (2 ədəd)<br>Minaxorlu (2 ədəd)<br>Yuxarı Qiyaməddinli (2 ədəd)<br>Şahsevən (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Lənbəran Qışlağı ərazisində “Ağdam Atçılıq Təsərrüfatı” MMC-nin sahəsi (2 ədəd) |
| 2. | Ağdam | 17 | Paşabəyli (1 ədəd)<br>Alıbəyli (1 ədəd)<br>Gül Baharlı (1 ədəd)<br>Xındırıstan (1 ədəd)<br>Çullu (1 ədəd)<br>Orta Qışlaq (1 ədəd)<br>Çəmənli (1 ədəd)<br>İsalar (1 ədəd)<br>Kiçikli (1 ədəd)<br>Mərzili massivi (3 ədəd)<br>Ergi massivi (5 ədəd) |
| 3. | Ağsu | 2 | Növcü (1 ədəd)<br>Qaraqoyunlu (1 ədəd) |
| 4. | Ağstafa | 10 | Yaradullu (1 ədəd)<br>Aşağı Kəsəmən (1 ədəd)<br>Zəlimxan (1 ədəd)<br>Qıraq Kəsəmən (1 ədəd)<br>Poylu (2 ədəd)<br>Xətai (1 ədəd)<br>Qarahəsənli (1 ədəd)<br>Düzqışlaq (1 ədəd)<br>Pirili (1ədəd) |
| 5. | Ağdaş | 1 | Qarağan Şıxlar (1 ədəd) |
| 6. | Astara | 1 | Təngərüd (1 ədəd) |
| 7. | Balakən | 9. | İtitala (1 ədəd)<br>Qarahacılı (1 ədəd)<br>Meşəşambul (1 ədəd)<br>Xalatala (1 ədəd)<br>Ağkilsə (1 ədəd)<br>Şərif (1 ədəd)<br>Qazma (1 ədəd)<br>Tülü (1 ədəd)<br>Katex (1 ədəd) |
| 8. | Beyləqan | 9 | Beyləqan şəhəri ərazisi (1 ədəd)<br>Şəfəq qəsəbəsi (2 ədəd)<br>Kəbirli (2 ədəd)<br>İkinci Aşıqlı (1 ədəd)<br>Dünyamalılar (2 ədəd)<br>Mayak qəsəbəsi (1 ədəd) |
| 9. | Bərdə | 18 | Qurdlar (1 ədəd)<br>Kətəlparaq (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Piyadalar (2 ədəd)<br>Soğanverdilər (2 ədəd)<br>Əmirli (2 ədəd)<br>Xanərəb (1 ədəd)<br>Şərəfli (1 ədəd)<br>Şahvəlilər (1 ədəd)<br>Böyük Qacar (1 ədəd)<br>Qaradəmirçi (1 ədəd)<br>Qazaxlar (1 ədəd)<br>Qaradağlı (1 ədəd)<br>Kələntərli (1 ədəd)<br>Əliyanlı (1 ədəd)<br>İkinci Nazırlı (1 ədəd) |
| 10. | Cəlilabad | 20 | Cəlilabad şəhər ərazisi (1 ədəd)<br>Təzəkənd (1 ədəd)<br>Üçtəpə (5 ədəd)<br>Privolnoye (2 ədəd)<br>Alar (1 ədəd)<br>Uzuntəpə (2 ədəd)<br>Qarazəncir (4 ədəd)<br>Bədirli (1 ədəd)<br>Moranlı (1 ədəd)<br>Cəfərxanlı (2 ədəd) |
| 11. | Füzuli | 12 | Böyük Bəhmənli (1 ədəd)<br>Gecəgözlü (1 ədəd)<br>Aşağı Yağlıvənd (1 ədəd)<br>Horadiz şəhəri (1 ədəd)<br>Aşağı Kürdmahmudlu (1 ədəd)<br>Bala Bəhmənli (1 ədəd)<br>Seyidmahmudlu (1 ədəd)<br>Qarabağ (4 ədəd)<br>Araz Dilağarda (1 ədəd) |
| 12. | Gəncə | 2 | Kəpəz rayonunun ərazisi (2 ədəd) |
| 13. | Goranboy | 19 | Goranboy şəhərinin ərazisi (2 ədəd)<br>Qurbanzadə (1 ədəd)<br>Bağçakürd (1 ədəd)<br>Səfikürd (1 ədəd)<br>Qarqucaq (1 ədəd)<br>Abbasqulular (1 ədəd)<br>Rəhimli (1 ədəd)<br>Borsunlu (1 ədəd)<br>Şadılı (1 ədəd)<br>Qaradağlı (2 ədəd)<br>Xoylu (2 ədəd)<br>Muzdurlar (1 ədəd)<br>Xınalı (1 ədəd)<br>Qaramusalı (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Qırıqlı (1 ədəd)<br>Qarapirimli (1 ədəd) |
| 14. | Göygöl | 4 | Balçılı (1 ədəd)<br>Qızılqaya qəsəbəsi (1 ədəd)<br>Hacıməlik qəsəbəsi (1 ədəd)<br>Yeni Qızılca (1 ədəd) |
| 15. | Xaçmaz | 4 | Maqsudkənd (1 ədəd)<br>Həsənqala (1 ədəd)<br>Mollabürhanlı (1 ədəd)<br>Tel (1 ədəd) |
| 16. | Şamaxı | 1 | Muğanlı (1 ədəd) |
| 17. | İsmayıllı | 8 | İsmayıllı şəhəri ərazisi (2 ədəd)<br>Mollaisaqlı (1 ədəd)<br>Elabad (1 ədəd)<br>Topçu (1 ədəd)<br>Qalınçaq (1 ədəd)<br>Aşıqbayramlı (1 ədəd)<br>Kürdmaşı (1 ədəd) |
| 18. | Qax | 13 | Qax şəhəri ərazisi (1 ədəd)<br>Tasmalı (1 ədəd)<br>Qorağan (1 ədəd)<br>Almalı (1 ədəd)<br>Cəlayır (1 ədəd)<br>Oncallı (1 ədəd)<br>Qaxbaş (1 ədəd)<br>Zərnə (1 ədəd)<br>Əmbərçay (1 ədəd)<br>Qaratala (1 ədəd)<br>Qaradolaq (1 ədəd)<br>Qaşqaçay (1 ədəd)<br>Meşəbaş (1 ədəd) |
| 19. | Qazax | 11 | Aşağı Salahlı (1 ədəd)<br>Orta Salahlı (2 ədəd)<br>Çaylı (2 ədəd)<br>Canalı (1 ədəd)<br>Hüseynbəyli (1 ədəd)<br>Kosalar (1 ədəd)<br>Dəmirçilər (1 ədəd)<br>Xanlıqlar (1 ədəd)<br>Qarapapaq (1 ədəd) |
| 20. | Qəbələ | 8 | Çarxana (1 ədəd)<br>Aydınqışlaq (1 ədəd)<br>Xırxatala (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Tikanlı (1 ədəd)<br>Bum qəsəbəsi (1 ədəd)<br>Yenikənd (1 ədəd)<br>Tövlə (1 ədəd)<br>Uludaş (1 ədəd) |
| 21. | Quba | 5 | Alpan (1 ədəd)<br>Əlibəyqışlaq (1 ədəd)<br>Birinci Nügədi (1 ədəd)<br>Zizik (1 ədəd)<br>Vəlvələ (1 ədəd) |
| 22. | Qusar | 5 | Qalacıq (1 ədəd)<br>Həsənqala (1 ədəd)<br>Gədəzeyxur (1 ədəd)<br>Bala Qusar (1 ədəd)<br>Quxuroba (1 ədəd) |
| 23. | Masallı | 6 | Ərkivan (1 ədəd)<br>Qodman (1 ədəd)<br>Böyük Kolatan (1 ədəd)<br>Xoşçobanlı (1 ədəd)<br>Bədəlan (1 ədəd)<br>Tüklə (1 ədəd) |
| 24. | Oğuz | 6 | Sincan (1 ədəd)<br>Padar (1 ədəd)<br>Kərimli (1 ədəd)<br>Top (1 ədəd)<br>Bucaq (1 ədəd)<br>Xaçmaz (1 ədəd) |
| 25. | Samux | 10 | Samux şəhəri ərazisi (2 ədəd)<br>Zazalı (1 ədəd)<br>Qiyaslı (1 ədəd)<br>Bağbanlar (1 ədəd)<br>Lək (1 ədəd)<br>Qarabağlar (1 ədəd)<br>Sərkar (2 ədəd)<br>Seyidlər (1 ədəd) |
| 26. | Şəki | 13 | Şəki şəhər ərazisi (1 ədəd)<br>Birinci Biləcik (1 ədəd)<br>Aydınbulaq (1 ədəd)<br>Aşağı Küngüt (1 ədəd)<br>Köbər Zəyzid (1 ədəd)<br>Orta Zəyzid (1 ədəd)<br>Bideyiz (1 ədəd)<br>Oxud (1 ədəd)<br>Baş Göynük (1 ədəd)<br>Kosalı (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Aşağı Göynük (2 ədəd)<br>Baqqal (1 ədəd) |
| 27. | Şəmkir | 15 | Şəmkir şəhəri ərazisi (2 ədəd)<br>Çinarlı qəsəbəsi (1 ədəd)<br>Dəllər Cəyir (1 ədəd)<br>Dəllər Daşbulaq (1 ədəd)<br>Sabirkənd (2 ədəd)<br>Zəyəm qəsəbəsi (1 ədəd)<br>Bayramlı (1 ədəd)<br>Zəyəm Cırdaxan (1 ədəd)<br>Düyərli (2 ədəd)<br>Mahmudlu (1 ədəd)<br>Qasım İsmayılov (1 ədəd)<br>Keçili (nasos stansiyası ərazisi) (1 ədəd) |
| 28. | Tərtər | 13 | Tərtər şəhər ərazisi (1 ədəd)<br>İlxıçılar (1 ədəd)<br>Qazyan (1 ədəd)<br>Ələsgərli (1 ədəd)<br>Yuxarı Sarıcalı (1 ədəd)<br>Sarıcalı (1 ədəd)<br>Seydimli (1 ədəd)<br>Bala Kəngərli (1 ədəd)<br>Dəmirçilər (1 ədəd)<br>Borsunlu (1 ədəd)<br>Bəyimsarov (1 ədəd)<br>Kəbirli (1 ədəd)<br>Qaraağacı (1 ədəd) |
| 29. | Tovuz | 12 | Bozalqanlı (2 ədəd)<br>Aşağı Quşçu (3 ədəd)<br>Qovlar şəhəri (1 ədəd)<br>Qəribli (1 ədəd)<br>Düz Qırıqlı (2 ədəd)<br>Alakol (2 ədəd)<br>Dönük Qırıqlı (1 ədəd) |
| 30. | Yevlax | 3 | Kolanı (1 ədəd)<br>Rüstəmli (1 ədəd)<br>Qaramanlı (1 ədəd) |
| 31. | Zaqatala13 | 13 | Zaqatala şəhər ərazisi (1 ədəd)<br>Car (1 ədəd)<br>Göyəm (1 ədəd)<br>Dağlı (1 ədəd)<br>Muğanlı (1 ədəd)<br>Faldarlı (1 ədəd)<br>Qandax (1 ədəd)<br>Kəpənəkçi (1 ədəd)<br>Kürdəmir (1 ədəd) |

| | | | |
|---|---|---|---|
| | | | Bəhmətli (1 ədəd)<br>Muxax (1 ədəd)<br>Əliabad qəsəbəsi (2 ədəd) |
| 32. | Xocavənd | 2 | Nərgiztəpə ərazisi (2 ədəd) |
| 33. | Cəbrayıl | 2 | 1 saylı Qəsəbənin ərazisi (Biləsuvar rayonu) (1 ədəd)<br>Cocuq Mərcanlı (1 ədəd) |
| 34. | Yardımlı | 1 | Alçabulaq (1 ədəd) |
| 35. | Şuşa<br>(Ağdam rayonu ərazisi) | 1 | Mirzələr qış yatağı (1 ədəd) |
| 36. | Laçın<br>(Ağcabədi rayonunun Taxta -Körpü ərazisi) | 1 | “Şeylanlı -1” obası (1 ədəd) |
| 37. | Qobustan | 2 | Sündü (1 ədəd)<br>Çuxanlı (1 ədəd) |
| 38. | Lənkəran | 2 | Vilvan (1 ədəd)<br>Lüvəsər (1 ədəd) |
| | Cəmi | 300 | 248 |

## Quba Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Quba Rayon Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 7,55 milyon (yeddi milyon beş yüz əlli min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 mart 2018-ci il.

## Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarındatəhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarında cəmi 748 şagird yerlik modul tipli 11 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 3 915 000 (üç milyon doqquz yüz on beş min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 mart 2018-ci il.

***Azərbaycan Respublikası Prezidentinin***
***2018-ci il 16 mart tarixli***
***Sərəncamına***
***Əlavə***

### Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Ucar rayonu Qaradağlı kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 2 | Ucar rayonu Küçəkənd kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 3 | Zərdab rayonu Sileyli kənd 20 şagird yerlik modul tipliibtidai məktəbin quraşdırılması | 230 000 |
| 4 | Zərdab şəhər 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 5 | Zərdab rayonu Hüseynxanlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Zərdab rayonu Nəzəralı kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 7 | Zərdab rayonu Sarıqaya kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 8 | Göyçay rayonu Veysəlli kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 9 | Kürdəmir rayonu Bağman kənd 80 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 390 000 |
| 10 | Kürdəmir rayonu Öyləqulu kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |

| | | |
|---|---|---|
| 11 | Kürdəmir rayonu Təklə kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| | **Cəmi** | **3 915 000** |

# Lənkəran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkəmizdə xalça və xalça məmulatlarının istehsalını, ixracını, onların ölkə daxilində və xarici bazarlarda satışının təşkilini, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqini, bu sahədə maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni təmin etmək məqsədilə Füzuli rayonunun Horadiz qəsəbəsində, Şəmkir, Quba, Ağdam, Ağstafa, Xaçmaz, İsmayıllı, Qazax, Qəbələ və Tovuz rayonlarında xalça istehsalı emalatxanalarının istismara verilməsi nəticəsində 1600 yeni iş yeri yaradılmışdır.

Bu sahədə işlərin davam etdirilməsinin və daha da genişləndirilməsinin vacibliyini nəzərə alıb, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.
3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2018-ci il.

## Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərindəndir.

2004–2017-ci illər ərzində respublika ərazisində 600-dən çox səhiyyə müəssisəsi tikilmiş, əsaslı təmir olunmuş və müasir tibbi avadanlıqla təchiz edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Goranboy Rayon Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 22,35 milyon (iyirmi iki milyon üç yüz əlli min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 mart 2018-ci il.

## Lənkəran, Lerik və Astara rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. Lənkəran, Lerik və Astara rayonlarında cəmi 860 şagird yerlik modul tipli 16 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 942 000 (dörd milyon doqquz yüz qırx iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 mart 2018-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 21 mart tarixli Sərəncamına*
*Əlavə*

**Lənkəran, Lerik və Astara rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı**

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Lənkəran rayonu Köhnəgəgir kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 2 | Lənkəran rayonu Jidi kənd 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 425 000 |
| 3 | Lənkəran rayonu Alazəpin kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 4 | Lənkəran rayonu Türkəncil kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 330 000 |
| 5 | Lerik rayonu Sivəkəran kənd 20 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 230 000 |
| 6 | Lerik rayonu Küsəkəran kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 7 | Lerik rayonu Vov kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 8 | Lerik rayonu Monidigah kənd 96 şagird yerlik modul tipli tam orta məktəbin quraşdırılması | 425 000 |
| 9 | Lerik rayonu Kirəvud kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 10 | Lerik rayonu Zövnə kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |

| | | |
|---|---|---|
| 11 | Lerik rayonu Vılıq kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 12 | Lerik rayonu Vamazğon kənd 40 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 285 000 |
| 13 | Lerik rayonu Kaqoy kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 14 | Lerik rayonu Conu kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 15 | Astara rayonu Şəmətük kənd 20 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 230 000 |
| 16 | Astara rayonu Doli kənd 40 şagird yerlik modul tipli ibtidai məktəbin quraşdırılması | 260 000 |
| | **Cəmi** | **4 942 000** |

## Abşeron rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 mart 2018-ci il.

## Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beyləqan rayonunda Olimpiya İdman Kompleksinin layihə-smeta sənədlərinin hazırlanması və tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.9.11-ci yarımbəndində göstərilmiş məbləğin 16,5 milyon (on altı milyon beş yüz min) manatı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 mart 2018-ci il.

## Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.4-cü yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 mart 2018-ci il.

## Bərdə rayonunun Muğanlı–Körpüsındıran avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On üç min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Muğanlı–Körpüsındıran avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 7,0 (yeddi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 mart 2018-ci il .

## Bərdə şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla yerinə yetirilməsi nəticəsində Bərdə rayonunda bir sıra sosialyönümlü infrastruktur layihələri yerinə yetirilmiş, o cümlədən Müalicə– Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, “ASAN xidmət” Mərkəzi, 2 Uşaq İncəsənət Məktəbi, Bayraq Meydanı, əlil və şəhid ailələri üçün 96 mənzilli 3 yaşayış binası tikilmiş, orta əsr Azərbaycan memarlığının qiymətli abidələrindən sayılan Bərdə türbəsi və “Torpaqqala” tarixi abidəsi bərpa olunmuş, Rayon Mədəniyyət Mərkəzi əsaslı təmir edilmiş, 20 ümumtəhsil müəssisəsi istifadəyə verilmiş, qırx doqquz min nəfər əhalinin yaşadığı 42 yaşayış məntəqəsini birləşdirən və ümumi uzunluğu 63 km olan kəndlərarası avtomobil yolları yenidən qurulmuş, yeni istehsal və emal müəssisələri yaradılmış, 21 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bərdə şəhərində abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, yeni infrastruktur layihələrinin həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

1. Bərdə şəhərində abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, o cümlədən 8 küçədə əsaslı yenidənqurma işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bərdə Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 mart 2018-ci il.

## Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında

## Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında təhsil infrastrukturunun yenidən qurulması məqsədi ilə **qərara alıram:**

1. Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında cəmi 824 şagird yerlik modul tipli 12 məktəbin (siyahı əlavə olunur) quraşdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 4 172 000 (dörd milyon yüz yetmiş iki min) manatı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 mart 2018-ci il.

*Azərbaycan Respublikası Prezidentinin*
*2018-ci il 27 mart tarixli Sərəncamına*
*Əlavə*

### Biləsuvar, Beyləqan, İmişli, Neftçala və Saatlı rayonlarında quraşdırılması nəzərdə tutulan modul tipli məktəblərin siyahısı

| Sıra №-si | Təhsil müəssisələrinin adları | Ayrılan vəsait |
|---|---|---|
| 1 | Biləsuvar rayonu Muğankənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 2 | Neftçala rayonu Mirzəqurbanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 3 | Neftçala rayonu Qaraqaşlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 4 | Neftçala rayonu Eldar Rəhmanov adına Aşağı Surra kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 5 | Neftçala rayonu Rövşən Babayev adına Xoltəzəkənd kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 6 | Neftçala rayonu Xolqaraqaşlı kənd 80 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 390 000 |
| 7 | Neftçala rayonu Qazaxbərəsi kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
| 8 | Neftçala rayonu Pirəbbə kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 262 000 |
| 9 | İmişli rayonu Muradxanlı kənd 56 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması | 315 000 |
